

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 119 (21.020)

25 iyun 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika




Fransa Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Strasburqda Avropa Şurası Parlament Assambleyasının sədri xanım Ann Brasör ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirə olundu. Azərbaycanda insan haqları və demokratikləşmə sahəsində görülən işlər, o cümlədən Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi dövründə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər barədə fikir mübadiləsi aparıldı.

* * *

İyunun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Strasburqda Avropa Şurasının Baş katibi Torbörn Yaqland ilə görüşmüşdür.

Görüşdə Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi dövründə prioritet təşkil edən məsələlər müzakirə olundu.Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

İyunun 24-də Strasburqda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri Din Şpilman ilə görüşü olmuşdur.

* * *

İyunun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının sessiyasında çıxış etmişdir.

## Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasının çağırılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyası 2014-cü il iyun ayının 28-də saat $11^{00}$-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın gündəliyinə aşağıdakı məsələlər daxil edilsin:

1. 2014-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları
2. Naxçıvan Muxtar Respublikasının 2013-cü il dövlət büdcəsinin icrasının təsdiq edilməsi

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 iyun 2014-cü il*

## Silahlı Qüvvələr Günü qeyd olunub



Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə "Heydər Əliyev və Azərbaycan Ordusu" mövzusunda tədbir keçirilmişdir. Naxçıvanda yerləşən Əlahiddə Ümumqoşun Ordusunun, "Naxçıvan" Sərhəd Diviziyasının zabit, gizir və əsgərlərinin, Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının və pedaqoji kollektivinin iştirak etdikləri tədbiri giriş sözü ilə Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik-leytenant Mirqiyas Rüstəmov açaraq Azərbaycanda güclü, qüdrətli və yüksək döyüş hazırlığına malik ordunun yaradılmasının ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd etmişdir. Bildirilmişdir ki, ulu öndər Heydər Əliyevin imzaladığı fərmanla Azərbaycan Xalq Cümhuriyyəti dövründə Əlahiddə Azərbaycan Korpusunun yaradıldığı 26 iyun tarixi Silahlı Qüvvələr Günü elan edilmişdir. Həmin tarixdən etibarən bu gün Milli Ordumuzun yaradıldığı gün kimi ölkəmizdə hər il təntənəli şəkildə qeyd olunur.

Naxçıvan Müəllimlər İnstitutunun dosenti Həsənəli Eyvazlı tədbir iştirakçılarını əlamətdar gün münasibətilə təbrik edərək bildirmişdir ki, bu gün Azərbayan xalqı onun müstəqilliyini və ərazi bütövlüyünü qoruyan qüdrətli ordusu ilə fəxr edir.

AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Rafiq Babayev Azərbaycanın ordu quruculuğu tarixindən danışaraq demişdir ki, ölkəmiz Cənubi Qafqaz regionunda ordu quruculuğu sahəsində lider ölkədir.

Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Şəhər Təşkilatının sədri Zahid Cəfərov bildirmişdir ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanın Milli Ordusu bu gün Azərbaycan Respublikasının Prezidenti, silahlı qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında özünün inkişaf və intibah yolunu keçməkdədir.

Qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin maddi-texniki bazası daim gücləndirilir, ixtisaslı hərbi kadrların hazırlanması sahəsində mütəmadi işlər aparılır. Bu gün böyük inkişaf yolu keçərək kifayət qədər güclənmiş Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandanın əmri ilə hər an düşmən tapdağı altında olan torpaqlarımızı azad etməyə hazırdır.

Sonda tədbir iştirakçıları "Araz sahilində doğan Günəş" tamaşasına baxmışlar.

## Əmək yarmarkasında 37 nəfərə göndəriş verilib

***Ölkəmizdə əhalinin məşğulluğunun təmin olunması, yeni iş yerlərinin yaradılması, yoxsulluq səviyyəsinin daha da aşağı düşməsi üçün mümkün olan bütün vasitələrdən istifadə edilir. Şərur rayonunda keçirilən növbəti əmək yarmarkasında bu barədə danışılmışdır.***

Tədbiri giriş sözü ilə açan rayon Məşğulluq Mərkəzinin direktoru Məmməd Məmmədov demişdir ki, bu gün məşğulluq sisteminin inkişaf etdirilməsi, yeni iş yerlərinin yaradılması, əmək bazarının tənzimlənməsi və qeyri-məşğul əhalinin sosial müdafiəsinin gücləndirilməsi dövlətimizin sosial-iqtisadi siyasətinin əsas tərkib hissəsidir. Bu siyasətin yerlərdə icrası bilavasitə məşğulluq xidməti orqanlarının üzərinə düşür. Odur ki, mərkəzin əməkdaşları rayondakı idarə, müəssisə və təşkilatlarda, sahibkarlıq subyektlərində olan boş iş yerləri haqqında məlumatlar toplayaraq həmin yerləri əmək yarmarkalarında işaxtaran vətəndaşlara təqdim edirlər.

Bu gün keçirilən əmək yarmarkasına 22 özəl və dövlət müəssisəsindən 264 boş iş yeri çıxarıldığını bildirən mərkəzin direktoru belə tədbirlərin gələcəkdə də davam etdiriləcəyini vurğulamışdır.

İşaxtaran vətəndaş Samirə Tahirli tədbirin təşkilatçılarına minnətdarlığını bildirmişdir.

Əmək yarmarkasında çıxış edən Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini Rövşən İsgəndərov vurğulamışdır ki, həyata keçirilən məqsədyönlü siyasət nəticəsində muxtar respublikamızda, eləcə də Şərur rayonunda çoxsaylı yeni iş yerləri yaradılmışdır. Qeyd olunmuşdur ki, əmək bazarının təkmilləşdirilməsi, iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şəraitin yaradılması sahəsində muxtar respublikamızda müvafiq tədbirlər həyata keçirilir. Xüsusilə "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)"nın birinci mərhələsinin uğurlu icrası yoxsulluğun nəzərəçarpacaq dərəcədə azalmasına gətirib çıxarmışdır. Həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır və muxtar respublika sakinləri tərəfindən onlara göstərilən böyük qayğı kimi dəyərləndirilir.

Qeyd edək ki, əmək yarmarkasında 37 nəfərə işə göndəriş verilmiş, 15 nəfər isə ictimai işlərə cəlb olunmuşdur.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Dövlət Universitetində tibb sahəsi üzrə kadr hazırlığının 15-ci, Tibb fakültəsindən məzunolmanın 10-cu ildönümünə həsr olunmuş tədbir keçirilib.*

## Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin 10-cu buraxılış mərasimi keçirilib



Aparıcı tədbiri açıq elan etdikdən sonra Tibb fakültəsində təhsilin səviyyəsindən, fundamental tədris bazasından, göstərilən diqqət və qayğıdan danışaraq muxtar respublika rəhbərinə məzunlar adından minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iqtisadi məsələlər üzrə müşaviri Müslüm Cabbarzadə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin kollektivinə ünvanladığı təbriki oxuyub.

Rektor, professor Saleh Məhərrəmov məzunları təbrik edərək Azərbaycanda tibb təhsilinin özünəməxsus inkişaf yolu keçdiyini, muxtar respublikada səhiyyənin inkişafının daim diqqət mərkəzində saxlanıldığını vurğulayıb, məzunlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Tibb fakültəsinin dekanı, dosent Bəhruz Məmmədov məruzəsində fakültənin inkişaf yoluna nəzər salıb. Bildirilib ki, 1999-cu ildə pediatriya ixtisası ilə təməli qoyulan fakültədə 2007-ci ildə tibbi profilaktika və 2011-ci ildə müalicə işi ixtisasları açılıb. Burada 35 çarpayılıq kliniki xəstəxana, 2011-ci ildən əsaslı şəkildə yenidən qurulmuş laboratoriya, müxtəlif fənn kabinələri, 5000-ə yaxın fonda malik kitabxana fəaliyyət göstərir. Bir akademikin, 3 elmlər doktorunun, 21 fəlsəfə doktorunun çalışdığı fakültədə aktual mövzulara həsr olunmuş elmi-tədqiqat işləri aparılır, beynəlxalq və respublika səviyyəli konfrans və simpoziumlar təşkil olunur. Təhsil müddətində tələbələrin praktik vərdişlərə yiyələnmələri məqsədilə Naxçıvan Muxtar Respublikasının müasir xəstəxanalarında və Türkiyə Respublikasının tanınmış universitetlərində peşə təcrübələri keçirilir. Fakültə dekanı sonda pediatriya və tibbi profilaktika ixtisasları üzrə bu il 28 nəfər tələbənin məzun olduğunu bildirərək onlara müvəffəqiyyətlər arzulayıb.

Cəmiyyətin sağlam gələcəyinin savadlı həkimlərdən asılı olduğunu vurğulayan Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov regionda yüksəkixtisaslı mütəxəssislərin yetişməsində Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin rolundan, həkim-məzunların iş yerləri ilə təmin olunmasına göstərilən qayğıdan danışıb.

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin fəaliyyətində xüsusi əməyi olan Azərbaycan Tibb Universitetinin kafedra müdiri, akademik Adilə Namazova, Naxçıvan Dövlət Universitetinin Ümumi təbabət və gigiyena kafedrasının müdiri, dosent Malikəjdər İbrahimov, Tibb fakültəsinin ilk məzunu, Tibbi klinik fənlər kafedrasının baş müəllimi, tibb üzrə fəlsəfə doktoru Elmar Rzayev də məzunları təbrik edərək onlara uğurlar arzulayıblar.

Sonra məzunlar Hippokrat andı içiblər.

Məzun günü konsert proqramı ilə davam edib. Tədbirdə Tibb fakültəsinin fəaliyyəti ilə bağlı slaydlar da nümayiş olunub.

**Mina QASIMOVA**

*Ayaq tutub üstündə yeridiyimiz, boy atdığımız, havasından udub, suyundan içdiyimiz, qoynunda məskən saldığımız bu torpaq bizim yurd yerimiz, Vətənimizdir. Bəli, Vətən ata-babalarımızın bizə əmanət qoyduğu müqəddəs yurd yeridir. Bu yurd yerini onlar öz qanları, canları bahasına qoruyub saxlamış, biz nəsillərə də onun keşiyində mərdliklə, mətanətlə dayanmağı tövsiyə etmişlər. Bu gün qürur hissi ilə deyə bilərik ki, babalarımızın tövsiyələrinə ayıq-sayıqlıqla əməl edən güclü ordumuz var.*

# Ordu dövlətçiliyin simvoludur



Əgər 1990-1993-cü illərdə torpaqlarımızın bir hissəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi o zamankı iqtidarın səriştəsizliyindən və dövlət təcrübəsizliyindən irəli gəlirdisə, digər tərəfdən ordunun olmaması düşdüyümüz vəziyyəti daha da ağırlaşdırırdı. Belə bir bəla Naxçıvanı da gözləyirdi. Naxçıvanın ordusu olmasa da, bir orduya bərabər gücə və qüdrətə malik ulu öndər Heydər Əliyev onun yanında idi. Ona görə də hiyləgər və mənfur düşmən bu torpağa ayaq basa bilmədi.

Bu fikirləri yazarkən dahi rəhbər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən sonra, 1991-ci il 7 sentyabr tarixdə verdiyi ilk qərarlardan birini xatırlayıram. Bu qərar Naxçıvanda Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında idi. Həmin gün muxtar respublika ərazisində hərbi və digər qurumların mərkəzləşmiş komandanlığa tabe edilməsinin əsası qoyuldu. 1991-ci ilin sentyabrından 1993-cü ilin iyun ayınadək Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən müdafiənin təşkili, sərhədlərin qorunması, muxtar respublika ərazisindəki hərbi hissələrin statusu ilə bağlı 9 mühüm qərar və digər normativ aktlar qəbul edildi. Naxçıvanın inkişafı və müdafiəsi fondu yaradıldı. Ordu quruculuğu ümumxalq işinə çevrildi. 1992-ci il oktyabrın 9-da Naxçıvanda ilk dəfə hərbi parad keçirildi və yenə də ilk dəfə olaraq hərbi əmr və raportlar Azərbaycan dilində verildi. Həmin paraddakı çıxışında dahi rəhbər Heydər Əliyev demişdir: ***"İndiyədək Naxçıvan torpağını cəsarətlə qorumuş bütün vətənpərvər oğullara, bütün könüllü dəstələrə öz minnətdarlığımızı bildiririk, onların gördükləri işləri lazımınca qiymətləndiririk. Eyni zamanda onu da bəyan etmək istəyirik ki, artıq Naxçıvanda nizami Milli Azərbaycan Ordusunun hərbi hissələri mövcuddur. Bu hissələr lazımi gücə malikdir və Naxçıvan torpaqlarını müdafiə etməyə qadirdir. Bizim borcumuz bu hissələrin möhkəmlənməsinə, inkişaf etməsinə hərtərəfli kömək göstərməkdən, onlara yüksək qayğı ilə yanaşmaqdan, qarşılarına çıxan bütün çətinliklərin aradan qaldırılmasında yaxından iştirak etməkdən ibarətdir".***

1993-cü ilin yazında Azərbaycan dövlət müstəqilliyini itirmək təhlükəsi qarşısında qalmışdı. O zamankı iqtidarın həyata keçirəcəyi vahid proqram yox idi. Xalqımızın böyük oğlu Heydər Əliyev Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının konfransında deyirdi: ***"İnanın, indi Azərbaycanın düşdüyü ağır vəziyyət Böyük Vətən müharibəsi illərindən daha ağır və dəhşətlidir. Çünki hazırkı iqtidarın nə hərbi, nə iqtisadi, nə də siyasi inkişaf konsepsiyası yoxdur. Amma Böyük Vətən müharibəsi dövründə belə, bir vahid proqram var idi. Çünki ordusu olmayan ölkənin müstəqil dövlətçiliyi mümkün olmadığı kimi, sabitliyi, möhkəm iqtisadi potensialı olmayan dövlətin də güclü ordusu ola bilməz".***

Belə bir konsepsiya bir müddətdən, görkəmli dövlət xadimi Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra yaradıldı və həyata keçirilməyə başlanıldı. 1993-cü ilin noyabrında Azərbaycanın nizami Milli Ordusu yaradıldı. Müstəqil Azərbaycan dövləti sərbəst şəkildə torpaqlarını qorumaq və müdafiə etmək imkanı qazandı. Dahi rəhbər deyirdi: ***"Torpağı hər kəs, hər bir vətəndaş, hər bir azərbaycanlı müdafiə etməlidir. Əgər əlinə silah alıb vuruşan adam torpağını müdafiə etmək istəyirsə, amma silahdan istifadə etməyi, hərbi işi, hərbi peşəni bilmirsə, zabit kadrların potensialından istifadə etmirsə, çətin ki, öz torpağını qoruya bilsin".***

Hərbi quruculuğun sirlərini mükəmməl bilən görkəmli dövlət xadimi Heydər Əliyev hərbi kadrların yetişdirilməsi işinə xüsusi diqqət yetirir, ölkənin müdafiə imkanlarının və şəxsi heyətin döyüş qabiliyyətinin yüksəldilməsi istiqamətində zəruri tədbirlər həyata keçirirdi.

Azərbaycan Silahlı Qüvvələrinin peşəkar hərbçi kadrlara olan tələbatını ödəmək, Naxçıvan Muxtar Respublikasında gənclərin hərbi təhsil almaları üçün əlverişli şəraiti təmin etmək məqsədilə C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının yaradılması barədə 1998-ci il tarixli Sərəncamı ilə ulu öndər ordu quruculuğu istiqamətində daha bir uzaqgörən addım atdı. Filial nəinki muxtar respublikadan, həmçinin ölkəmizin müxtəlif regionlarından olan onlarla gənci öz ətrafına topladı. Bu məktəbdə təhsil alan gənclərə Vətənə sədaqətlə xidmət etmək ruhu aşılandı. 2001-ci ildə Naxçıvan filialının ilk buraxılışına həsr olunmuş təntənəli tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ilk məzunları, onların valideynlərini, müəllimlərini və zabit heyətini təbrik edərək dedi: ***"Ordu dövlətçiliyin simvoludur. Ordusuz dövlət ola bilməz. Ordusuz Vətən qoruna bilməz. Ordu varsa, Vətənin, Vətənin varsa, evin, evin varsa, ailən var. Bunlar hamısı müqəddəsdir. Bütün bu müqəddəs varlıqların qoruyucusu isə ordudur".***

Filialın ilk 50 nəfər məzunundan 49-u ali hərbi məktəblərə daxil olmuşdur. Fərəhli haldır ki, Ali Məclis Sədrinin hər il buraxılış günündə məzun-kursantlarla, o cümlədən müəllim və zabit heyətilə görüşü artıq bir ənənəyə çevrilmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin 27 fevral 2004-cü il tarixli Sərəncamı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini əbədiləşdirmək məqsədilə C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazası əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılmışdır.

Milli zabit kadrların hazırlanması hər bir xalq üçün olduqca vacib məsələdir. Milli hərbi kadrlar olmadan öz xalqına, dövlətinə sədaqətli ordu yaratmaq mümkün deyildir. ***"Azərbaycanın güclü ordusu bu gün də, sabah da, on il, yüz il də bundan sonra lazımdır. Bunun üçün planlı iş aparılmalıdır",*** – deyən ümummilli liderimiz Heydər Əliyevin milli ordu quruculuğu siyasəti bu gün Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Hazırda ordu quruculuğu sahəsində böyük işlər görülür. Azərbaycan Silahlı Qüvvələrinin muxtar respublikamızda yerləşən hərbi hissələri bu gün hər bir hərbi hissə üçün nümunə, örnək ola bilər. Buradakı şərait ən yüksək standartlara cavab verir.

Bu gün hər bir Azərbaycan vətəndaşı qürurla deyir ki, Azərbaycan Ordusu böyük gücə, texnikaya, silah-sursata malikdir. İndi Azərbaycan Ordusunun müasir dövrdə uğurlu müdafiəni təmin etmək, yaxud müharibə aparmaq üçün düzgün strukturu yaranıbdır. Naxçıvanda ordu quruculuğundan söhbət açarkən ona görə sevinirik ki, bu işin ümumxalq işinə çevrilməsinin əsası ulu öndər Heydər Əliyevin bu torpaqda ordu quruculuğu ilə bağlı qəbul etdiyi qərardan sonra başlayıb və bu günə qədər davam edir. Naxçıvan əhalisi, buradakı idarə, müəssisə və təşkilatlar əlamətdar günlərdə, bayramlarda əsgərlərimizi heç vaxt yaddan çıxarmır, onlarla görüşə gedir. Bu görüşlər əsgərlərimizdə böyük ruh yüksəkliyi yaradır, onların dövlətimizə və xalqımıza olan dərin məhəbbətini daha da artırır. Naxçıvanda xalqla ordu arasında yaradılan birlik hər bir əsgərdə Azərbaycan dövlətçiliyinə və dövlətinə qarşı yüksək vətənpərvərlik hissi oyadır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun söylədiyi kimi: ***"Bu gün bizim ordumuz bizim birliyimiz, həmrəyliyimiz, silah tutan əlimiz, döyünən ürəyimiz, gələcəyimizin qarantı və inam yerimizdir".***

Naxçıvan Muxtar Respublikasının müdafiəsinin etibarlı təminatı istiqamətində atılan növbəti addım ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin dekabrın 18-də Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Fərman imzalaması oldu. Fərmana əsasən, Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, silahlı qüvvələrin hissə və bölmələrinin döyüş qabiliyyətinin artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusu yaradılmışdır.

Əlahiddə Ümumqoşun Ordusu nədir və bu ordunun funksiyaları nədən ibarətdir? Əvvəlcə qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının məlum hadisələrdən sonra blokada vəziyyətinə salınması, Vətənimiz Azərbaycanla hava yolu istisna olmaqla, birbaşa heç bir əlaqənin olmaması, istənilən vaxtda xarici hərbi müdaxilələrin olması ehtimalı, istər sülh, istərsə də müharibə vəziyyətində hər hansı bir təhlükə yarandığı zaman buradakı qüvvələrin koordinasiyasının həyata keçirilməsi regiondankənar digər hərbi birləşmələrin köməyi olmadan müstəqil şəkildə döyüş apara bilən peşəkar orduya ehtiyacı zəruri edirdi. Əlahiddə Ümumqoşun Ordusunun yaradılması məhz bu baxımdan regionun təhlükəsizliyində mühüm rol oynayır.

Nəzərə alaq ki, ordu quruculuğu həm də tükənməyən bir prosesdir. Yəni müasir dünyada istənilən ölkə öz ordusunda modernləşmə aparır, hərbi texnikalar yeniləri ilə əvəz olunur, peşəkarlığın yeni metodları tətbiq edilir və sair. Bu baxımdan yanaşsaq, Əlahiddə Ümumqoşun Ordusunun yaradılması ilə muxtar respublikamızın müdafiəsinin gücləndirilməsində, təhlükəsizliyimizin yüksək səviyyədə qorunmasında yeni bir tarixi dövrə qədəm qoyulub. Gündən-günə dəyişən diyarımızın gözəlliyini və bu gözəlliyi bizə bəxş edən inkişafı qorumaq üçün bizə lazım olan Əlahiddə Ümumqoşun Ordusu bu gün qədim Naxçıvanın strateji mövqeyinin keşiyində durur.

*Bəli, görkəmli dövlət xadimi Heydər Əliyevin quruculuq bəhrələrindən biri olan ordumuz bu gün Vətənimizin müdafiəsində daha möhkəm dayanaraq ona həvalə edilmiş missiyanı şərəflə yerinə yetirir.*

**Rövşən HÜSEYNOV**

# Sərhədlərimiz pozulurdu, torpaqlarımız işğal edilirdi

***Bu, o zaman baş verirdi ki, onda Milli Ordumuz yox idi. Ona görə də düşmən istədiyi vaxt üstümüzə ayaq açırdı.***

*Həmin tarixə bir nəzər:*

1990-1993-cü illərdə – Milli Ordunun formalaşmadığı zamanlarda üstümüzə ayaq açıb sərhədlərimizi istədikləri yerdən, istədikləri vaxt keçib yurd yerlərimizi viranəyə çevirən ermənilər Sədərək rayonunu da işğal etmək istəyirdilər. O günlərdə hər bir sədərəkli müsəlləh əsgər kimi döyüşə atılsa da, düşmən susmaq bilmirdi. Çünki düşmən onun qarşısında nizami ordu dayanmadığını bilirdi. Həmin günlərdə həmkarımız Vaqif Məmmədov doğma ocağının kədərini sözün gücü ilə ifadə edərək yazırdı:

*Sular donub bulanmır,*
*Od-ocağı qalanmır,*
*Dağda sürü dolanmır,*
*Bu kənd niyə yetimdir?*
*Güllərin dəstəsi yox,*
*Təndirin tüstüsü yox,*
*Evlərin istisi yox,*
*Bu kənd niyə yetimdir?*
*Neçə gözdə yaş qalıb,*
*Top-tüfəngə tuş qalıb,*
*Beşikləri boş qalıb,*
*Bu kənd niyə yetimdir?*
*Yollar boransa, qarsa,*
*Yağıya güc çatarsa,*
*Arxası-eli varsa,*
*Bu kənd niyə yetimdir?*

Həmkarım Vaqif Məmmədov kədərini onda nəzmə çəkirdi ki, kişilər gecə-gündüz dağlarda düşmən qabağında dayanırdılar, qadın, uşaq, qocalar isə bir hənirtidən səksənib qapıları bağlayır, işıqları söndürürdülər. Uşaq səsindən, qoyun-quzu mələrtisindən uzaq düşən ellərimiz, obalarımız yetim kimi bir qərib sükuta qərq olmuşdu. Bütün bunlar ona görə baş verirdi ki, yağı düşmən sərhədlərimizin keşiyini çəkən insanların əliyalın olduğunu bilirdi. Nə çəkdik, onda çəkdik. Amma atalarımız demişkən, "yaman günün ömrü az olar". O günlərimiz acı xatirə kimi keçmişdə qaldı. Amma unudulmadı.

Sərhədlərimiz təpədən-dırnağa kimi silahlanmış Milli Ordumuzun ayıq-sayıqlığı ilə qorunur. İlbəil gücü artan, qüdrətlənən ordumuzun əsgəri qarşısında cılızlaşan, kiçilən erməni zabiti qınına çəkilib.

Şahbuz rayonunda hər il onlarla gənc Milli Ordumuzun sıralarında Vətənə xidmət etmək üçün hərbi xidmətə gedir. Onların xoş sədasını eşidərkən ürəyimiz dağa dönür. Oğullarımızın xidmət etdiyi hərbi hissələrdə ən yüksək şəraitin yaradıldığı, hər bir əsgərə, gizirə, zabitə və ümumiyyətlə, şəxsi heyətə diqqət və qayğı göstərildiyi hər kəsə məlumdur. Bu gün başqa bölgələrdə olduğu kimi, Şahbuz rayonunun ərazisində olan hərbi hissələrdə də həyata keçirilən tədbirlər göz önündədir. Buna misal olaraq, demək olar ki, Şahbuz şəhərindəki "N" hərbi hissənin yerləşdiyi ərazidə bir neçə müasir ikimərtəbəli binaların tikilməsi ilə yanaşı, hərbi şəhərciyin yaradılması və həmin ərazidə hərbçi ailələrinin yaşayışı üçün beşmərtəbəli ictimai binanın istifadəyə verilməsi, açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı Milli Ordumuza göstərilən qayğının əyani nümunəsidir.

2011-ci ilin dekabrında rayondakı "N" hərbi hissənin tabor mərkəzinin yeni binası istifadəyə verildi. Açılış mərasimində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"...Azərbaycanın ayrılmaz tərkib hissəsi olan muxtar respublikada da silahlı qüvvələrimizin birləşmə və hissələri yaradılmışdır. Yüksək xidməti şərait, müasir döyüş texnikası, artilleriya qurğuları və atıcı silahlarla təmin olunan bu hissə və birləşmələr Naxçıvanın müdafiəsini, sərhədlərimizin qorunmasını layiqincə təşkil edirlər..."***

Ölkəmizdə ordu quruculuğu prosesi kompleks şəkildə həyata keçirilir. Hərbi hissələr, birləşmə və bölmələr üçün müasir xidməti binaların inşa olunması ilə yanaşı, həm də silahlı qüvvələrimizin ən yeni silah-sursatla, döyüş texnikası, zirehli maşınlarla təchiz edilməsi hərbi qüdrətimizin daha da artmasının göstəricisidir.

Sevindirici haldır ki, respublikamızda müdafiə sənayesi sistemi uğurla inkişaf etdirilir. Bütün bunlar isə hərbi hissələrin şəxsi heyətinin döyüş əzmini artırır. Şahbuz rayonunda da bu istiqamətdə görülən işlər göz önündədir. Milli Ordunun əsgərlərinə, ümumilikdə, şəxsi heyətə böyük diqqət və qayğı göstərən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "N" hərbi hissənin əsgərləri ilə görüşü zamanı demişdir: ***"Ali Baş Komandanın əmri olarsa, qürur və iftixar mənbəyimiz olan qüdrətli Azərbaycan Ordusu istənilən vaxt işğal altındakı torpaqlarımızı azad etməyə qadirdir".***

Milli Ordunun zabit və əsgərlərinə göstərilən qayğı onların sağlamlıqlarının qorunmasına, fiziki və hərbi hazırlıqlarının yüksək səviyyədə təmin edilməsinə şərait yaradır. Torpaqlarımızın etibarlı şəkildə qorunması, sözsüz ki, silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsindən asılıdır. Güclü maddi-texniki baza həm də yüksək döyüş hazırlığı və qələbə əzmi deməkdir. Bu mənada Şahbuz rayonundakı "N" hərbi hissənin şəxsi heyəti də bu gün istənilən döyüş tapşırığını yerinə yetirmək gücündədir.

Şahbuz rayonunun Ermənistanla həmsərhəd olan ərazilərində yerləşən hərbi hissələrin əsgərləri və şəxsi heyəti düşmənlə yaxın təmas xəttində – ölkəmizin ən ucqar məntəqələrində xidməti vəzifələrini yerinə yetirirlər. Mənfur ermənilər bu gün Milli Ordumuzun gücü və qüdrəti qarşısında aciz olduqlarını yaxşı bilirlər.

Təqdirəlayiq haldır ki, xidmətdə fərqlənənlərin əməyi dövlətimiz tərəfindən qiymətləndirilir, onlar təltif edilirlər. Şahbuz rayonundakı hərbi hissədə xidmətdə olan gənclərimizin ailələrinə göndərilən təşəkkür məktubları dediklərimizin sübutudur. Bu da zabit və əsgərlərin ruh yüksəkliyini, məsuliyyətini daha da artırır.

Bu Vətəni qoruyan oğullarının hər birinə qəhrəmanlıq, qələbələr, şücaət arzulayır və onları qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə təbrik edirik.

**Şəhla NƏBİYEVA**

# Naxçıvan xatirələrim...

***İsrail vətəndaşı Jacqui Licht 18-20 iyun tarixlərində Naxçıvanda səfərdə olmuşdur. Muxtar respublikanın tarixi abidələri və təbiət mənzərələri ilə tanışlıq qonaqda xoş təəssürat yaratmışdır. Jacqui Lichtin muxtar respublika ilə bağlı xatirələrini oxuculara təqdim edirik.***





Biz indi Naxçıvandayıq. Bu ərazi tamamilə Azərbaycandan aralı düşüb. Türkiyə, İran və Ermənistanla həmsərhəddir, muxtar respublikadır və özünün idarəetmə forması var.

Xatırladaq ki, biz İslam memarlığı və dizaynını çox sevirik. Naxçıvanda birinci Yusif Küseyiroğlu türbəsinə getdik. Bu abidə səkkizbucaqlı türbədir və 1162-ci ildə Memar Əcəmi tərəfindən tikilib. Abidənin bütün divarları həndəsi naxışlarla bəzədilib. Abidənin başında ucumiz qübbəsi var. Bizim planlaşdırdığımız növbəti dayanacaq 17-ci əsrə aid olan Xan sarayıdır. Bu, çox gözəl ikimərtəbəli bina idi. Xan sarayının yaxınlığında Möminə xatın türbəsi ucalır. Bu abidə də 1186-cı ildə Memar Əcəmi tərəfindən tikilib. Bu abidə dövlət başçısı olmuş sərkərdə tərəfindən həyat yoldaşının şərəfinə tikilib və ölümündən sonra onun oğlu tərəfindən tamamlanıb. Abidənin üzərində kufi əlifbası ilə yazılar var. Bu, Azərbaycanda ən gözəl tarixi memarlıq abidəsi hesab olunur. Heyranedici səbəblərdən biri odur ki, abidənin ortasındakı tək sütun bütün abidəni ayaqda saxlayır.



Naxçıvan şəhərində bizim növbəti dayanacağımız Naxçıvanqala oldu. Bu qala tamamilə yenilənib. İçərisində muzey fəaliyyət göstərir. Kompleksin yaxınlığında Nuh Peyğəmbərin dəfn olunduğu türbə vardır. Naxçıvanın adı "Nuhun vətəni" mənasını verir. Türbə 8-ci əsrdə tikilib və ilk dəfə 11-ci əsrdə təmir edilib. Ən son isə 2008-ci ildə təmir olunub.





Günorta yeməkdən sonra biz şəhərdən şimal-qərbdə olan Qarabağlar kəndinə yola düşdük. Burada Qarabağlar türbəsi yerləşir. Bütün bu böyük kompleksdən təkcə 12 sütunlu göy-mavi kirəmitlə bəzədilmiş abidə və iki minarə qalır.

Biz nahar yeməyi üçün dayandıq. Azərbaycanda olduğum müddətdə birinci dəfə idi ki, balıq yeyirdim. Bu, Araz çayından tutulmuş təzə sazan balığı idi. Qızardılmış balıq narşərabla süfrəyə verildi. Çox ləzzətli idi.



### *Naxçıvan-Ordubad*

Gözəl səhər yeməyi yedikdən sonra saat $9^{00}$-da bələdçimiz Həsənlə Ordubada yola düşdük. Yol boyu uzanan və eroziyaya uğrayaraq möcüzəli forma almış dağlar xoş mənzərə yaradırdı. Bu dağların rəngləri müxtəlif idi. Bəziləri kükürdlü olduğu üçün sarı, bəziləri isə çiyələk burulğanına bənzəyirdi. Yaşıllıqlar içərisindəki kənd uzaqdan vahəyə oxşayırdı. Bura çox yağış yağmır, lakin suvarma suyu asanlıqla əldə olunur. Çünki dağlardan çaylar axır. Günortaya yaxın biz əzəmətli İlanlı dağı gördük. Əfsanəyə görə, Nuh Peyğəmbərin gəmisi birinci bu dağa dəyib və dağın zirvəsində haça yaradıb. Biz dağın ətrafındakı yaşıllıqlar və məhsuldar torpaqları gördükdə çox təəccübləndik. Çünki yoldan baxanda bu ərazidə yaşıllıq olduğunu görmək çətindir.

Biz Ordubadın qədim məhəllələrini gəzdik. Buradakı evlər palçıqdan tikilmişdir. Şəhərin bu hissəsinə su qədim zamanlarda tikilmiş kəhrizlər vasitəsi ilə verilir. Hər evin həyətində kəhriz quyuları vardır. Biz Ordubad şəhərindəki Saatabad məscidində olduq. Ordubadın mərkəzində – çinar ağaclarının altındakı çayxananın yuxarı tərəfində XVIII əsrə aid olan Cümə məscidi yerləşir. Məscidin böyük pəncərələri və məscidlər üçün qeyri-adi olan iki şir və insan sifəti həkk olunan freskosu vardır. Məsciddə insanlar ibadət edirdi. Kilsələrdən fərqli olaraq, onların fikirlərini yayındıran heç nə ilə rastlaşmadıq. Məscidin qadınlar olan hissəsi əsas hissəsindən fərqli olaraq, daha gözəl və qapalı idi.





Bir çox tarixi yerlərlə tanış olduqdan sonra Naxçıvan şəhərinə qayıtdıq və Kazım Qarabəkir Paşa məscidində olduq. Kazım Qarabəkir Paşa Naxçıvanda qəhrəman kimi xatırlanır. O, ötən əsrin əvvəllərində bu ərazidə yerli əhaliyə qarşı amansız qətllər törədən erməniləri darmadağın edən türk ordusuna başçılıq etmişdir. Bu məscid 1997-ci ildə Kazım Qarabəkir Paşanın xatirəsinə inşa edilmişdir. Türk memarlıq üslubunda tikilən məscidin içərisi çox gözəldir.



### *Naxçıvan haqqında son qeydlərim*



Günorta yeməyi yemək üçün Naxçıvan şəhərindəki Buzxanaya gəldik. Qədim zamanlarda bu yeraltı bina buz ilə doldurulmuş və burada ərzaqlar saxlanılmışdır. Haliyədə bu yer Azərbaycan milli yeməklərinin təqdim olunduğu milli yeməkxanadır. Mən bu yeri hər kəsə tövsiyə edirəm. Buradakı milli yemək nümunələri Azərbaycanın başqa yerlərində yediyimiz yeməklərdən dadlı idi. Biz milli şirniyyat olan paxlava sifariş etdik. Paxlava fındıq və qozla hazırlanır, çayla çox ləzzətli olur.

**Jacqui LİCHT**
***İsrail vətəndaşı***

# Ana dilinin tədrisi müasir dövrümüzün aktual məsələlərindəndir

***Dil insanlar arasında ən mühüm ünsiyyət vasitəsidir. Məhz buna görə dili ictimai hadisə adlandırırlar. İnsan ətraf aləmdə hər şeyi öyrənməkdə, təlim-tərbiyə almaqda əsas olaraq sözdən istifadə edir. Ona görə də dil özünü təlim-tərbiyə prosesində mühüm vasitə kimi göstərir.***

Peşəkar tənqidçi, ədəbiyyatşünas, Ana dilinin saflığı və inkişafı uğrunda mübarizə aparan Firudin bəy Köçərli belə yazırdı: "Hər millətin özünə məxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatın mayeyi-mənziləsidir. Ananın südü bədənin mayəsi olduğu kimi, ananın dili də ruhun qidasıdır. Hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir".

Məşhur rus pedaqoqu K.Uşinskinin "Bir millətin malını, dövlətini, hətta vətənini alsan, ölüb-itməz, amma dilini alsan, fövt olar və ondan bir nişan qalmaz" fikrini oxuyarkən ana dilinin nə dərəcədə əhəmiyyətli olduğunu görürük.

Mirzə Cəlil hələ XX əsrin əvvəllərində rus-Avropa, ərəb-fars, türk-osmanlıcaya üstünlük verən ziyalıları ifşa edən yazılar yazırdı. O, "Anamın kitabı"(1919) dramı ilə bu fikirlərinə son nöqtəni qoymuş və bu üç meylin üçünə də gülmüşdü. M.S.Ordubadinin "Ana dili" felyetonu da bu fikirlərlə səsləşir.

Oğlu ilə axund arasında gedən "rusca-ərəbcə" söhbətdən bir şey anlamayan ana oğlundan hansı dildə danışdıqlarını soruşanda oğlu cavab verir:

*– Ana, biz mollaynan ana dilində danışırıq.*

*Ana başını aşağı salır və bir qədər fikrə getdikdən sonra deyir:*

*– Yazıq ana dili!!!*

Cümlənin sonunda qoyulmuş üç nida işarəsi vəziyyətin nə dərəcədə ciddi və acınacaqlı olduğundan xəbər verir.

Bu vəziyyət XX əsrin ortalarında başqa formada davam edirdi. SSRİ-nin tərkibində dilindən uzaqlaşdırılan azərbaycanlılar ana dilində danışmağa belə çəkinirdilər. Dilimizdən istifadə dairəsi olduqca məhdudlaşdırılmışdı. Ümummilli lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsi bu məhdudiyyətin də cəsarətlə aradan qaldırılması ilə nəticələndi. Azərbaycan dilinin işləklik arealı genişləndi, dilimizdə özləşmə meyilləri müşahidə olunmağa başladı.

Bütün sahələrdə qloballaşma prosesinin getdiyi müasir günümüzdə Ana dilinin ibtidai siniflərdə tədrisi xüsusilə aktual məsələlərdən birinə çevrilmişdir. Belə ki, bütün fənlərin təməli ibtidai siniflərdə qoyulur. 6 yaşlı uşaq məktəbdə ilk dəfə hərfləri və səsləri öyrənir, daha sonra söz və cümlələri oxumağa başlayır. Deməli, sinif müəllimi çalışmalıdır, bu təməli elə qoysun ki, şagird gələcəkdə digər fənləri öyrənərkən çətinlik çəkməsin.

İbtidai siniflərdə Ana dilinin tədrisinin başlıca qayəsi şagirdlərin nitqinin inkişaf etdirilməsidir. Bu fikirlər ibtidai siniflər üçün ana dili proqramında öz əksini belə tapmışdır: "İbtidai siniflərdə "Ana dili" fənninin tədrisində başlıca məqsəd şagirdlərə doğma dildə oxumağı, yazmağı öyrətmək, onların şifahi və yazılı nitqini inkişaf etdirməkdir".

Müasir təhsil sistemində daim yeniləşmə və inkişaf prosesləri getməkdədir. Bu inkişaf, ilk növbədə, ibtidai təlim sisteminin dəyişdirilib yeniliyə doğru istiqamətlənməsi ilə nəticələnir. 1985-ci ildən dördillik ibtidai təhsil sisteminə keçilməsi, 1999-cu ildən "Həyat bilgisi" fənninin xüsusi fənn kimi tədrisi, bu fənnin "Ana dili" fənni ilə inteqrasiya olunması və nəhayət, 2009-cu ildən müasir təlim metodu olan kurikuluma keçid bu yeniliyin nəticəsidir. Amma elmdə baş verən hər hansı bir yeniliyin yalnız yüksək praktik yetkinliyə çatdığı zaman inandırıcı olduğunu da unutmayaq. Çünki bəzən yeni fikirlər yalnız öndən çəkilmiş şəkli xatırladır, onun arxasında nəyin olduğunu görmək, nəzəri düşüncəni inkişaf etdirmək isə hər bir elm adamının vəzifəsidir.

"Hər bir yenilik mütləq tətbiq olunacaq", – deyə bir qayda yoxdur. Bəzən müəllimlər rastlaşdıqları hər hansı bir təcrübəni pedaqoji fəaliyyətlərində tətbiq etməyə çalışırlar. Bəlkə, bu, onun çalışdığı mühitlə, iş prosesilə uyğun gəlmir? Buna görə də hər bir müəllim qabaqcıl təcrübənin yerli şəraitə uyğun tətbiqini öyrənməlidir. Yalnız yeni dünya təcrübəsinin məqsədyönlü tərəflərindən istifadə etməklə ana dili tədrisinin inkişafına dəyərli töhfələr verə bilərik.

Müəllim kiminsə təcrübəsini eynilə tətbiq etməməli, öyrədəcəklərini müasir şəraitə, dil xüsusiyyətlərinə, sinfin səviyyəsinə uyğunlaşdırmağı bacarmalıdır. Eynilə K.Uşinskinin dediyi kimi: "Qabaqcıl təcrübə köçürülmür. Köçürülən təcrübənin surəti deyil, ondan irəli gələn ideyadır".

Bütün bunlarla yanaşı, Ana dilinin metodik irsimizdən kənar tədrisini düşünmək qeyri-mümkündür. Amma bu, o demək deyil ki, keçmişdə bu sahədə əldə edilmiş hər hansı bir təcrübəni bu gün də olduğu kimi tətbiq etməliyik. Bu, mümkün deyil. Keçmişin mütərəqqi, əlverişli ideyalarını götürüb tətbiq etməklə həm B.Çobanzadə, M.Mahmudbəyov, Y.Seyidov və adını çəkə bilmədiyimiz neçə-neçə fikirləri bu gün də aktuallığını qoruyan pedaqoqların təcrübəsini gələcəyə daşımış olarıq, həm də gənc nəsil bu sınanmış təcrübədən qidalanar.

Bir məqam da var ki, didaktikanın prinsiplərinə əsaslanmadan Ana dilinin elmi əsaslarla tədrisi mümkün deyil. Müasir Azərbaycan dili üzrə aparılan tədqiqatları oxumadan, onlardan bəhrələnmədən ibtidai və eləcə də yuxarı siniflərdə qrammatik materialı tədris etmək çətin olar. Belə ki, dilçilik elmi metodikaya məlumat verir, metodika şagirdlərin yaş prinsiplərini nəzərə alaraq, onu rəngarəng tapşırıq və çalışmalarla zənginləşdirərək bizə təqdim edir. Bu materialı mənimsəyib qiymətləndirmək isə biz müəllimlərin öhdəsinə düşür.

***Ana dilinin tədrisində yeni-yeni üsullardan, interaktiv metodlardan istifadə günümüzün tələbidir. Hər bir yaradıcı müəllim bu üsullardan ən səmərəlisini seçməklə müasir dərsin necə qurulması prinsiplərini araşdırmalıdır.***

**Aytəkin MİRZƏYEVA**
***Babək rayon Şıxmahmud kənd tam orta məktəbinin dərs hissə müdiri***

# Günəş şüalarının insan orqanizminə təsiri

***Qədim zamanlardan həyatda Günəşin rolu və əhəmiyyəti insanların diqqətini cəlb edib və onlar möcüzəvi xüsusiyyətlərinə görə Günəşi ilahiləşdiriblər. Əsrlər keçdikcə bu pərəstiş tədricən obyektiv elmi araşdırmalara yol açıb.***

Atmosferdə və Yerin səthində baş verən bütün təbii proseslər Günəşdən Yerə gələn şüaların enerjisinin təsiri altında baş verir. Günəş Yer kürəsini enerji ilə təchiz edir və Yerin Günəşə çevrilmiş tərəfini daim işıqlandırır. Yer səthinə çatan Günəş şüalarının əsas komponentləri işıqdan, infraqırmızı və ultrabənövşəyi şüalardan (elektromaqnit dalğalarından) ibarətdir.

Günəş şüaları atmosferin üst səthinə daxil olduqda Günəş şüalarının bir hissəsi atmosferdə olan qazlar və aerozolların molekulları tərəfindən geriyə, kosmosa tərəf qaytarılır.

Günəş şüaları Yerin səthinə düşərkən radiasiyanın çox hissəsi torpağın nazik üst qatı və ya qalın su qatı tərəfindən udulur, bir hissəsi istiliyə (43 faiz) çevrilir. Bir hissəsi isə (22 faiz) buxarlanma və buludların yaranmasına sərf olunur. Qalan hissəsi fotosintezə, küləklərə və sairə verilir.

Günəş şüalarının Yer səthinə gəlməsi və başqa şəklə salınmış halda getməsi arasında tarazlıq (balans) mövcud olarsa, Yer kürəsində qlobal iqlim dəyişməz qalır. Bu tarazlıq pozulanda isə Yer üzündə iqlim dəyişikliyi baş verir.

Dağlar buludların hərəkətinin qarşısını alırlar və əlavə olaraq dağlara düşən Günəş şüaları əks olunaraq Yerin səthinə istiqamətlənirlər. Buna görə də Naxçıvan Muxtar Respublikası ərazisində Günəş şüalarının intensivliyi yüksək olur, ərazidə quru, kəskin kontinental iqlim üstünlük təşkil edir və yay aylarında temperatur $+45^0$ C-dək yüksəlir.

Dağlıq ərazidə yerləşən Naxçıvan Muxtar Respublikasında dəniz səviyyəsindən hündürlüyə qalxdıqca atmosferin optik qatının azalması səbəbindən atmosfer radiasiyası hər 100 metrdə 0,007÷ 0,14 kVt/m² artır.

Qeyd etmək lazımdır ki, Günəş şüalarının ən çox udma qabiliyyətinə yaşıl zəmi (0,93), su və qar (0,995), yaşıl ağaclar (0,94) malikdirlər. Məhz bu səbəbdən qədim zamanlardan insanlar günəşli havada yaşıl ağacların altında, yaşıl otların arasında, bulaq və ya çay sahilində yaşamağa və dincəlməyə üstünlük veriblər.

Muxtar respublika ərazisində düşən Günəş şüalarının parlaqlığı kifayət qədər yüksəkdir (2900-3000 saat). Burada Günəşin parlaqlığı martda 290-300 saat, apreldə 300-310 saat, mayda 320-330 saat, iyunda 460 saat, iyulda 470 saat, avqustda 470 saat, sentyabrda 330-340 saat və oktyabrda 320 saat təşkil edir.

Günəş radiasiyasının paylanmasında ərazinin yerləşdiyi coğrafi relyef, dağların sıldırımlığı, yamacların düzülüşü və səmanın şəffaflığı əsas rol oynayır. Naxçıvan Muxtar Respublikası ərazisinin atmosferinin şəffaflığı mövsümi olur. Muxtar respublikada radiasiya rejimi mart ayından noyabr ayınadək sabit olaraq qalır və əsasən, regionda buludlu havanın olmamasından asılı olaraq dəyişir. Yüksəklikdə atmosfer təzyiqi azalır, Günəşin radiasiyası və şüalanmasının effektivliyi artır, temperatur və rütubətin xüsusi çəkisi azalır.

Ərazisi mürəkkəb, dağlıq relyefə malik olan diyarımızda Günəş radiasiyasının sıldırım dağlar və onların yamaclarında qeyri-bərabər bölünməsi ərazidə böyük mikroiqlim dəyişikliyinə səbəb olur.

Məhz bu səbəbdən regionda insan bədəninin Günəş şüalarını səhər saatlarında qəbul etməsi vacibdir. Çünki bu vaxtlar Günəşin ilk şüalarının komponentlərinin istilik təsirinin səviyyəsi aşağı olur. Bundan başqa, təmiz hava və Günəş şüaları əsəbləri sakitləşdirir və insanlarda xoş əhval-ruhiyyə yaradır.

Günəş şüaları insan bədənində “sevinc hormonu” adlanan serotoninin və D vitamininin artmasına səbəb olur. İnsan hər gün birbaşa Günəş şüaları altında 15 dəqiqə qalmaqla, onun orqanizmi D vitamininə olan tələbatın gündəlik normasını qazanır.

Günəş şüalarının çatışmazlığı, nəticədə, insan sağlamlığına zərər verə bilər. Belə ki, görünən Günəş işığı ətraf mühitin, obyektlərin vizual görünmələrini təmin edir. Günəş şüalarının istiliyi insan orqanizminə təsir edərək damarlarda qan dövranının, tənəffüs sisteminin intensivliyinin yaxşılaşmasına, bioloji aktiv maddələr mübadiləsinin formalaşmasına səbəb olur.

Bütün bunlara baxmayaraq, Günəş şüalarının həddindən artıq qəbulu xəstəliyə və ya xroniki proseslərin kəskinləşməsinə səbəb ola bilər.

Günəş şüalarının ən təhlükəlisi ultrabənövşəyi şüalardır. Həyat üçün təhlükəli şüalar ozon təbəqəsinin sayəsində Yerin səthinə çatmırlar. Lakin son zamanlar Yer atmosferində baş verən proseslər səbəbindən Yerin səthinə gələn ultrabənövşəyi şüaların miqdarı artıb. ABŞ-ın Albert Eynşteyin adına Tibb Kollecinin alimlərinin apardıqları araşdırmaların nəticələrinə əsasən, Günəş şüaları şəklində insan bədəninə düşən 180-280 nm ultrabənövşəyi şüalar insanın ömrünü azaldır, insanlar daha erkən ölürlər. Bu isə müasir həyat şəraitində insan sağlamlığı üçün böyük təhlükə deməkdir.

Uşaqlar birbaşa Günəş şüalarının təsirinə məruz qalmamalıdırlar. Onların dəriləri böyüklərin dərilərindən, demək olar ki, iki dəfə nazik olur. Buna görə də uşaqlarda dəri xərçəngi riski artır.

Yuxarıda göstərilən amilləri nəzərə alaraq, Naxçıvan Muxtar Respublikasının əhalisi günəşli günlərdə uzun müddət Günəş şüalarının təsiri altında olmamağa çalışmalıdırlar. Günəş şüaları diabet, ürək-damar, endokrin xəstəliklərinin, göz xəstəliyinin ağırlaşmasına, dəridə bədxassəli şişlərin əmələ gəlməsinə səbəb olar və dəri xərçənginə tutulma ehtimalını artıra bilər. Buna görə də ehtiyac olmadan Günəş şüalarının təsiri altında qalmaq yolverilməzdir!

İnsan bədənini Günəş şüalarının zərərli təsirlərindən qorumaq üçün bir sıra mexanizmlər mövcuddur və bu mexanizmlərdən istifadə edilməsi vacibdir. İnsanın özünü Günəş şüalarının təsirindən qoruması çox çətin deyil və bu zaman bir neçə sadə qaydalara riayət edilməsini tövsiyə edirik:

*- qadınlar və uşaqlar səhər saat 11-dən saat 18-dək Günəş şüalarının təsirindən qorunmalıdırlar;*

*- insanlar səhər saat 11-dən saat 17-dək Günəş şüalarının altında fiziki fəaliyyətdən çəkinməlidirlər;*

*- insanlar isti günlərdə 3-4 litrə qədər maye (mineral sular, ayran, qaynadılmış su və sair) qəbul etməlidirlər;*

*- Günəş şüalarından qorunmaq məqsədilə mütəmadi olaraq dəri qoruyucularından – çətirdən və ya baş örtüyündən istifadə edilməli, gözlərin qorunması üçün (həkimlərin təyin etdikləri) xüsusi eynəklərdən istifadə olunmalı, bədəni Günəş şüalarının təsirindən qoruyan paltarlar geyinilməlidir.*

**Məhbub KAZIMOV**
***AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun əməkdaşı***

# Ot və taxıl biçini dövründə yanğın təhlükəsizliyi qaydalarına riayət etmək vacib məsələlərdən biridir

***Zəmilərin yaşıl örpəyinin qızılı donla əvəz olunduğu, kombaynların biçin üçün sahələrə çıxdığı mövsümdə yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalıdır.***

Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən muxtar respublika ərazisində aparılan ot-taxıl biçini kampaniyası dövründə yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi və biçin zamanı yanğınların baş verməsinin əvvəlcədən qarşısının alınması məqsədilə bir sıra zəruri tədbirlər həyata keçirilmişdir. Belə ki, biçin dövrü ərzində taxıl sahələrində işləyəcək kənd təsərrüfatı texnikalarına, “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin və onun rayon bazalarında olan kombaynlara yanğına qarşı baxışlar keçirilmiş, onların sürücüləri və mexanizatorları ilə yanğın təhlükəsizliyi qaydaları haqqında maarifləndirici söhbətlər aparılmışdır. Taxıl tədarük olunan un dəyirmanlarında, yem anbarlarında və saxlanclarda yanğın-texniki müayinələr keçirilərək bu sahədə çalışan işçilərlə maarifləndirmə işləri aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi sahibkarlara, torpaq mülkiyyətçilərinə, fermerlərə və kəndlilərə biçin dövrü ərzində aşağıda qeyd olunan yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etmələrini tövsiyə edir.

Taxıl və ot yığımına başlamazdan öncə bütün təsərrüfat rəhbərləri, biçində iştirak edən hər bir mexanizator, sürücü kənd təsərrüfatı texnikalarını yanğına qarşı hazırlamalı, onları yanğına qarşı texniki müayinədən keçirməli, ilkin odsöndürücü vasitələrlə təmin etməli və texnikaları yanğın təhlükəsizliyi qaydalarının tələblərinə cavab verməsi barədə akt tərtib edildikdən sonra işə buraxmalıdırlar. Dənli və texniki bitkilərin yığılması, daşınması, emalı və saxlanması dövründə yanğın təhlükəsizliyinə nəzarət et-




mək üçün əmrlə cavabdeh şəxslər təyin edilməlidir.

Taxıl biçinində iştirak edən traktor və kombayn sürücüləri, onların köməkçiləri, digər mexanizatorlar, eləcə də məhsul yığımına cəlb edilən hər bir şəxs yanğına qarşı təlimat keçməlidir. Yanğın təhlükəsizliyi üzrə təlimat almayan şəxsə məhsul yığımında iştirak etməyə icazə verilməməlidir.

Məhsul yığımında iştirak edən bütün texnikaların, mühərriklərin atqı boruları qığılcımsöndürənlərlə təmin edilməlidir. Kollektorların birləşmə hissələrinin və atqı borusunun ara qatlarında zədələnmələr olmamalıdır.

Texnikalardakı elektrik naqilləri etibarlı izolyasiya olunmalı, birləşmələr bərkidilməli, eləcə də sürtünmədən və mexaniki zədələnmədən qorunmalıdır. Naqillər gövdə və onun iti künclərindən keçən yerlərdə rezin və ya plastmas borularla mühafizə olunmalıdır.

Taxıl yığımı və ot tədarükü zamanı kombaynın kənar şəxs tərəfindən işə salınması, kombaynın yedəyə almaqla və yüksəklikdən buraxmaqla işə salınması, kombayna əlavə oturacağın quraşdırılması, yanacaq və yağların sızmasına yol verilməsi, işdən sonra kombaynların sahələrdə saxlanması, kombaynlarda əlavə yanacaq və yağlama materiallarının saxlanılması yanğın təhlükəsizliyi cəhətdən yolverilməzdir.

Dənli və texniki bitkilərin yetişdiyi dövrdə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə meşə zolaqları, avtomobil və dəmir yolları taxıl zəmilərinə yaxın olduqda onların arası biçilməli və eni 4 metrdən az olmamaq şərtilə şumlanmalıdır. Biçilmiş ot taxıl zəmilərindən ən azı 30 metr məsafədə tayalanmalıdır. Zəmiləri yanğından qorumaq üçün xüsusi keşikçilər ayrılmalıdır.

Biçin zamanı taxıl zəmilərinin yaxınlığında baş verə biləcək yanğınların qarşısını almaq məqsədilə kotanlı traktorlar olmalı, taxıl zəmilərində və onların yaxınlığında küləş yandırılmasına və tonqal qalanmasına yol verilməməlidir. Tarla şəraitində traktor, kombayn və digər maşınların yanacaqla təmin edilməsi mühərrik dayandırıldıqdan sonra yanacaqdoldurucu maşınlarla həyata keçirilməlidir. Gecə vaxtı maşınların yanacaqla doldurulması qəti qadağandır.

Taxıl xırmanları bina və tikintilərdən 50 metr, taxıl zəmilərindən 100 metr aralı məsafədə yerləşdirilməlidir. Xırmanların ətraf sahələri quru otlardan, yanar materiallardan mütləq təmizlənməli, ətrafı isə 4 metr enində şumlanmalıdır.

Bir daha xatırladırıq ki, kənd təsərrüfatı məhsullarının, xüsusən taxılın oddan qorunması hər bir vətəndaşın borcudur. Taxıl bərəkətdir və o, böyük zəhmət hesabına ərsəyə gəlir. Bu baxımdan xalqımızın bu müqəddəs və əvəzsiz sərvətini oddan qoruyaq.

***Taxıl biçini dövründə hər hansı bir yanğın hadisəsi baş verərsə, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin “112” qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin “101” xidməti telefonlarına zəng etməyi unutmayın.***

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***

***Ötən şənbə Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının pediatr, dermatoloq, oftalmoloq, stomatoloq və laborantlardan ibarət həkim briqadası Babək rayonunun Məmmədrza Dizə kəndindəki uşaqlara profilaktik tibbi xidmət göstərib.***

# Həkim briqadası uşaqları tibbi müayinədən keçirib

Briqadanın fəaliyyəti zamanı 50 nəfər (0-18 yaşlı) profilaktik, o cümlədən 12 nəfər laborator müayinədən keçirilib. 30 nəfər valideynlə səhiyyə maarifi işi aparılıb. Dispanserizasiya işinin düzgün təşkili, peyvəndlərin təqvim üzrə aparılması, tibbi sənədləşmənin həyata keçirilməsi üzrə feldşer-mama məntəqəsinin tibb bacılarına metodik məsləhətlər verilib. Aşkar edilmiş bəzi xəstəliklərin əlavə müayinə və müalicəsi üçün xəstələrə müvafiq səhiyyə müəssisələrinə getmələri tövsiyə edilib. Xəstələr pulsuz dərman və sarğı materialları ilə təmin olunublar.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Elan

Taxılçılıqda yüksək məhsul istehsalına nail olmaq üçün keyfiyyətli, yerli torpaq-iqlim şəraitinə uyğunlaşmış sortlardan tədarük edilmiş toxum materialından istifadə olunması vacibdir. Bu məqsədlə “Bərəkət” Toxumçuluq Təsərrüfatı yüksək reproduksiyalı elit taxıl toxumlarının münasib qiymətə satışını təşkil edir. Satışa “Naxçıvandəni”, “Cəlilabad-19” arpa sortları, “Quality”, “Quadilop”, “Ceyhan-99”, “Dağ-daş”, “Bezostaya”, “Moskviç”, “Qiymətli” və “Əzəmətli” buğda sortları təklif olunur.

***Ünvan: Naxçıvan şəhəri, M.Şəhriyar küçəsi 60***
***“Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətinin “Bərəkət” Toxumçuluq Təsərrüfatı***
***Əlaqə telefonu: (036) 544-82-38***

## Allah rəhmət eləsin

Naxçıvan Dövlət Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi akademik İsa Həbibbəyliyə, dayısı **ƏKBƏRİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru Tariyel Talıbov və institutun kollektivi iş yoldaşları Sahib Hacıyevə, əzizi **VÜQARIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Sahib Hacıyevə, əzizi **VÜQARIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru Oruc Həsənli və institutun professor-müəllim heyəti iş yoldaşları Gülmira Hacıyevaya, həyat yoldaşı **VÜQARIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru Oruc Həsənli və institutun professor-müəllim heyəti akademik İsa Həbibbəyliyə, dayısı **ƏKBƏRİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Müəllimlər İnstitutunun Pedaqogika və psixologiya kafedrasının müdiri Qızıltac Şahbazova və kafedranın əməkdaşları iş yoldaşları Gülmira Hacıyevaya, əzizi **VÜQARIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin professor-müəllim kollektivi akademik İsa Həbibbəyliyə, dayısı **ƏKBƏRİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Duzdağ Fizioterapiya Mərkəzinin kollektivi iş yoldaşları **NİZAMİ QARAYEVİN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Duzdağ Fizioterapiya Mərkəzinin kollektivi iş yoldaşları Gəncəli Əliyevə, dayısı **SƏFƏRİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı Akif Mərdanlı, dekan müavini Şəmil Mahmudov akademik İsa Həbibbəyliyə, dayısı **ƏKBƏRİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL ŞƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 553